"DTK-nın qorxunc sirri"

ANATOLİ MATVEYENKO
Belarus

(əvvəli ötən şənbə saylarımızda)

DÖRDÜNCÜ FƏSİL

Fomiç maşından sürətlə işlədi. Bir həftədən sonra o içərisinə dəmir - xlorid tökülmüş qaba hazırladığı altlıqlardan birini yerləşdirdi. Bu, qabla eyni ölçüdə idi: 13*18. Onsuz da daha böyük ölçüdə hazırlamaq olmazdı, çünki onları zavodun keçidindən çıxarmaq olmurdu.

Polkovnik bir gündə iki dəfə zəng edir, iki gündən bir gəlirdi. Təəccüblü olsa da, İlk nəticələri görəndən sonra sakitləşdi. Bəlkə də onun tabe olduğu general bu tapşırığı unutmuşdu, ya da harasa, məsələn ADR-na ezamiyyətə getmişdi.

605 nömrəli məhsul vüqarla qablaşdırılacağı qutunun qapağının üstündə dayanmışdı. Qapağın o biri hissəsində ekranı "Belamor" siqareti ölçüsündə olan "Elektronik" televizoru, plastik altlıqlar, 220 voltluq elektrik mənbəyi vardı.

- Nə oldu? Yoxladınızmı? - kəşfiyyatçı salamsız-kəlamsız sual etdi.

- Hə, - laboratoriya müdiri cavab verdi. - Çevirici işləyir. Ekranda tezliyi 10 QiqaHersdən böyük olan dalğalar görünür.

Təbii ki. yarısını belə anlamadığı izahata bir dəqiqə qulaq asandan sonra Vovkanın masasına keçdi. Kiçik antenanın məftillərini nəzərdən keçirdi, güc əmsalını dəyişdirən rezistoru işə saldı. Antenanın yerini dəyişdikcə ekrandakı xətlər gah artır, gah azalırdı. Bundan başqa heç nə görsənmirdi.

Maşa, Fomiç və Roma başqa işlə məşğul idilər. 37-605 nömrəli işə qeyri-rəsmi cavabdeh olan Vovka və rəhbər olan Mixalıç son hücuma qarşı hazır idilər. Heç bir danlama olmadı.

Cihazla bir az oynayandan sonra polkovnik son dəbli portfelindən üstündə heç bir yazı olmayan qovluq çıxardı. Qovluqda iri rəngli şəkillərlə yanaşı, DTN arxiv idarəsinin möhürü olan və təbii ki, məxfi sayılan Amerika universitetinin jurnalı vardı.

- Necə bilirsiz, bu cihazı hazırlamaq nəyə gərəkdi?

- Bəlkə kosmik tədqiqatlar üçündü? - Vovka inamsız halda öz fərziyyəsini dedi. Onlar yadplanetliləri axtarmaq üçün. Şəbəkə proqramı eynidi. Fəzanı Yüksək tezlik diapazonunda öyrənmək istəyirlər.

- İngiliscə oxuya bilirsinizmi? - onların üzlərindəki ifadədən sualının yersiz olduğunu anlayan polkovnik davam etdi. - Qulaq asın, 1981-ci ildə amerikan alimi bu cihazla 10 QHs-dən böyük tezlikli radiodalğalarda qəribə dəyişiklər olduğunu müşahidə etdiyini bəyan etdi. Bizimkilər, gördüyünüz kimi sizin bu cihazdan çox da fərqi olmayan qurğunun şəklini çəkdilər. Baxın, amma ehtiyatla.

Bu isə amerikan qəzetlərinin birində həmin cihazın insanlar üçün təhlükəli olması haqda xəbərin şəklidi. Amerikan alimi öz qurğusunu, bütün çertyojları məhv edib özünü öldürür.

-Xəstə. Onlar hamısı dəlidi, harındılar, - Mixalıç deməyə başqa söz tapmadı.

- Bizdə də bu sxemi quraşdırmaq istədilər. Heç bir hissə üçün başqa ölkəyə sifariş vermədilər.

- Aydındı. Özümüzdə olanlarla nəsə düzəltmək istəyiblər.

- Onlarda daxili antenayla işləyən televizorun ekranındakı kimi boz rəng alındı.

Böyüklər ağıllı fikir mübadiləsi edərkən Vovka amerikan cihazının şəklini diqqətlə nəzərdən keçirirdi. Şəkildən görünən iki ovuc ölçüsü boyda olan qəribə birləşmə nəsə çox tanış gəlirdi. Elə bil onu görmüşdü, hətta düzəltmişdi. Macar pivəsinin dəmir qutusunu kəsərkən yaraladığı barmağından plastırı hələ açmamışdı.

Mixalıç taxta lövhənin üstündəki plastik altlıqlardakı hissələrə baxırdı. Xarici sifarişlə hazırlanan cihazın artıq hissələrini bir həftə əvvəl götürsə də "605 nömrəli tapşırığın zibilindən qurtarmayınca" ona əl vurmağı qəti qadağan etmişdi. Fomiç bu işə maraq göstərmirdi. Vovka hər iki qovluğu aparıb xüsusi şöbəyə təhvil vermək, xatadan uzaq olmaq istəyirdi. Amma! Kimsə çox ağıllı biri cərəyan çeviricisi ilə qəbuledicinin sxemlərini ayrı - ayrı qovluqlara qoymuşdu. Onların eyni vaxtda Vovkagildə olması möcüzə idi. Bütün mühəndislər getmişdi. O heç kimlə məsləhətləşə bilmədi. İş vaxtı qurtarırdı. Vovka qovluqları təhvil verdi. Qəfildən iş yoldaşlarıyla bölüşmək istədi. Polkovnikin okeanın o tayındakı alimin sirli ölümü haqda dediklərini də unda bilmirdi.

Ertəsi gün sahibkar hüquqlarından istifadə edən Fomiç televizoru əks kəşfiyyatçının qurğusundan ayırdı. Onu özünün düzəltdiyi antenaya birləşdirdi. Bütün günü məhsul yığımıyla bağlı xəbərlər, metallurqların işindən bəhs edən reportajlar, Brejnevin Honnekerlə görüş - öpüş səhnələri yayımlandı. Vovka diqqət çəkmədən üzərində qurğu yığılmış altlığı zavoddan çıxardı. Qənaət edərək yığdığı pul ehtiyatına komission mağazadan 70-ci illərin istehsalı olan kiçik "Şilyalis-401" televizoru aldı. Nəhayət, şənbə günü gəldi. Anası atasıyla birlikdə təzə aldığı şubanı nümayiş etdirmək həvəsiylə qonaq getdi. Vovka işə başladı. Köhnə kineskopu yenisiylə əvəz etdi. Kiçik televizorun 16 sm-lik ekranında aydın görüntülər və aparıcının amerikan imperializminin növbəti əməllərindən xəbər verən səsi eşidildi. Vovka televizoru yüksək tezlik qurğusuna birləşdirib piramida formalı kameraya qoşdu.

Nəticə təəssüfedici oldu. Yenə ekran açıq boz rəngə boyandı. Vovka nə qədər çalışsa da, görüntüləri qeydə alan piramida şəkilli baxış kamerasını hərəkət etdirsə də, heç nə alınmadı. Nəhayət bezdi, mətbəxə siqaretini götürməyə keçəndə radiotexnik duyumuyla ekranda fərqli bir işıqlanma olduğunu hiss etdi. Ekranın yaxınlığında bunu görə bilmirdi. Kənardan kölgələr belə müşahidə etdi. Hələ fizika fakültəsinin tələbəsi olarkən müxtəlif cihazlarla işləməyi sevən Vovka təslim olmaq istəmirdi. Yenidən qurğuya yaxınlaşdı: Ekranda hərəkət edən kölgə göründü. Vovka siqaret yandırıb fikrə getdi. Yüksək tezlikli işıqlandırıcı qurğu yalnız canlı varlığı qeydə alır. Köhnə "xruşşovka" mənzili bəzəyən nə bahalı yuqoslav mebelini, nə də çilçırağı qeydə almırdı. Vovkanın ağlına gəldi ki, əldə aparıla bilən cihaz yaratmaq olar. Özünlə götür və istənilən yerdəki görüntüləri qeydə al. Axı "Şilyalis" televizoru avtomobillər üçün idi. Maraqlıdı, görəsən, küçədə insanlar, ya heyvanlar ekranda görünərmi? Vovka sakitcə divanda oturub siqaret çəksə də ekranda elə bil əlindəki ağaca söykənib ayaqlarını çətinliklə hərəkət etdirən kölgə sezdi. Və bu kölgə ona çox tanış gəlirdi. Ola bilməz! Xəyal şəklin arxasında gizləndi. Vovka cihazı divanın üzərinə qoydu. Ekrandakı xəyal yerindəydi: Qeydə alınmayan balışlara dirsəklənib, əliylə görünməyən çəlikdən tutmuşdu.

- Nənə?

Vovka tərəddüdlə divanın kənarında oturdu. Olanlar maraqlı, cansıxıcı və kədərli idi. Üç il əvvəl ölmüş nənəsini çox sevirdi. Əlini ona uzatdı, televizora baxdı və xəyalın qapıya tərəf gedib gözdən itdiyini gördü. Oğlan yavaş-yavaş həqiqi həyata döndü, cihazı söndürdü. Və öz təkliyinə qapandı.

Birinci gün Mixalıç və Fomiç yığılmış qurğuları yerində görməyib cin atına mindilər. Vovkanın onları satdığını deməkdən başqa çıxış yolu qalmadı.

- Əclaf, - deyə qoca usta əsəbiləşdi. - Neçəyə satdın?

- 50 manata.

- Sənin ananı... Onu təmir edib iki yüz qazanardım. Pul hanı?

Əlindəki pulu ona verən Vovka, - yarısını da sabah gətirərəm. Qalanını xərcləmişəm, - dedi.

Bənövşəyi rəngə çalan kağız laboratoriya müdirini bir az sakitləşdirdi. Bir azdan artıq pivələri vardı. Amma onlara verəcəyi 20 rubl və "Şilyalis" almağa sərf elədiyi pul Vovkanın maddi durumunu çətinləşdirirdi. O avtomobil üçün akkumulyator, çanta almalı, görüşdüyü qızı, söz verdiyi kimi kafeyə aparmalı idi. Yüksək tezliklə işləyən əldə daşına bilən cihazın hazırlanmasını yanvarın axırına kimi təxirə salmalı oldu.

Köhnə kürkün üstündən asdığı elektrik hissələri dəsti onu botanik - desantçıya oxşadırdı. İçərisində akkumulyator olan kürəyindəki çanta paraşütü xatırladırdı. Sinəsindən asdığı "Şilyapis" olan çanta ehtiyat paraşütə oxşayırdı. Üstündəkilərin çəkisini təxmini hesablayanda onun 20 kq yük daşıdığını düşünmək olurdu. İmperializm dünyasında Vovkanı bu görkəmdə Qırmızı dəstədən, ya da Əfqanıstandan olan terroristə oxşadıb addımbaşı saxlayardılar. Burda isə ona kimsə dəyib dolaşmırdı, arxayınca gəzirdi. Yalnız bircə dəfə sahə müvəkkili onu saxlamışdı. Vovkanın yol gedə-gedə futbola baxdığını görüb "ay səni, ixtiraçı" deyərək dostcasına ayrılmışdı. Həm də qonşular Vovkanın ustalığından xəbərdar idilər. Vovka sahə müvəkkilinin də "Vesna-306" maqnitofonunu, radio cihazını təmir etmişdi.

Cihazla şəhərdə gəzərkən Vovka maraqlı nəticəyə gəldi: Ekranda müşahidə etdiyi kölgələrin ən azı 10 faizi ətrafda olanlar deyildi. Öz düşüncələri ilə bir ay mübarizə aparan ateist komsomolçu bu kölgələri artıq ruh hesab edirdi. İnsan bədənindən ayrı olan bu kölgələr yayğın-dağınıq görünürdülər. Çox sakit idilər. Adətən eyni yerdə olarkən müşahidə edirdi onları. Hərdən kölgələrin yanında dörd əli üstündə gedən, dumanlı şəkildə quyruğunu oynadan bir fiqur da görünürdü. Elə kölgələr vardı özünü çılğın aparırdı. Tanış gəlməyən birinin silueti Vovkagilin evinin keçidində görünür, küçədə şütüyən maşınlara əl edirdi, yəqin yol qəzasının qurbanlarından idi. Aydın idi ki, bu yüksəktezlikli cihaz adi həqiqi həyatı qeydə alırdı. Çünki görünən kölgələr adamlar kimi idi - yeriyir, skamyada oturur, pilləkənlə qalxırdılar. Düzdü, hərdən divarları belə keçir, asfalta sərilir, ya da göylərə uçurdular.

Bütün bunları kiminləsə bölüşmək, məsləhət almaq arzusu onu rahat buraxmırdı. Ancaq kiminlə? İşdə o dəqiqə təhlükədən uzaq olmaq üçün yığılmış gövdəni əvvəlki halına salmağa məcbur edəcəkdilər. Qız dostu bunu dəlilik hesab edəcəkdi. İnandırıcı olmasa da ən çox polkovniklə bölüşmək ağlına gəlirdi. O, acıqlı görünsə də işgüzar təsiri oyadırdı. Mixalıçın laboratoriyası onunçün maraqlı olmadığından polkovnik daha gəlmirdi. Əlaqə yaratmaq üçün isə heç bir koordinat, telefon nömrəsi, məlumat qoymamışdı. Və Vovka uşaqlıqdan istənilən çətinlikdə məsləhətləşdiyi nənəsiylə bölüşmək qərarına gəldi. Valideynlərinin uzunmüddətli evdə olmayacağı günü gözlədi. Nəhayət, belə bir gündə hazırladığı cihazı evdəki "Rubin" televizoruna birləşdirdi. Əlindəsə vərəqlər vardı. Doğma kölgə ekranda görünən kimi Vovka "Nənə, bu sənsən? Əgər doğrusa, başınla təsdiqlə..." - yazılmış vərəqi ekrana tutdu. Böyükekranlı televizorda görüntülər "Şilyalis"lə müqayisədə daha aydın idi. Amma yenə də yayğın və yalnız ağ-qaraydı. Amerikanların sxemi üzrə yığılan cihazın hissələrini tapmaq çətin idi. 30-40 ölçülü ekran da əlverişli deyildi. Dalğa uzunluqları da aydın görüntülər almağa imkan vermirdi. Amma hadisə baş vermişdi: Çoxdan ölmüş qadın onunla danışırdı.

- Mən neyniyim? Səni gördüyümü kiməsə deyimmi?

Güclə sezilən siluet dodaqlarını tərpədir, elə bil nəsə demək istəyirdi. Vovka onu anlamırdı, çətin ki bir başqası da bunu bacaraydı. Vovka əllərini açaraq heç nə anlamadığını başa salmaq istədi. Nənə "yox" mənasında başını yelləyirdi. "Deməli, yox. Yəqin haqlıdı".

"Necəsən?"

Nənə çiyinlərini çəkdi.

"Sən anama görə getmirsən?"

O yenə "yox" mənasında başını yellədi.

"Mənə görə? İstəyirsən işlərimi qaydaya salım?"

Nənə təsdiq etdi. Təbəssümü dumanlı da olsa, sezilirdi.

"Sənə söz verirəm. Tezliklə hər şey qaydasına düşəcək. Amma sən getmə. Mənə sənsiz çox pisdi".

Bu dəfə nənə tərpənmədi. 5 dəqiqədən sonrasa görünməz oldu. Vovçik təəssüflə köks ötürüb cihazı söndürdü. O, nənənin məsləhətinə qulaq asıb heç kimə bir kəlmə demədi. Amma kürəyində içində akkumulyator olan rüqzak və sinəsindən asdığı televizor olan çantayla gəzəndən Vovkadakı dəyişiklik, özünə qapanmağı valideynlərindən və sevgilisinin diqqətindən yayınmamışdı. Sevdiyi müğənnilərin şəkilləri ilə otağının divarlarını bəzəməyi sevən Vovka üçün indi onlar yalnız divar kağızı idi. Özünün hazırladığı S-90 gücləndiricilərinə qoşulmuş "Yupiter" maqnitofonunun üstünü də toz basmışdı.

(ardı var)

Tərcümə edəni:
Kəmalə Abiyeva